# Xocalı qətliamı

Yaxın tariximizin faciəli səhifələrindən biri kimi Xocalı soyqırımı xalqımızın qan yaddaşına əbədi həkk edilmişdir. Müharibə bəşəriyyətə həmişə ağır bəlalar gətirmiş, insanları dözülməz məhrumiyyətlərə, əzab-əziyyətə düçar etmişdir. Xocalı soyqırımı ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi, qatı cinayət kimi tarixə yazıldı.

Xocalıda baş verənlər o zaman Azərbaycanda dövlət rəhbərliyində olanların laqeydliyi üzündən dünya ictimaiyyətinə çatdırılmamışdır. Ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə qayıdandan sonra ermənilərin xalqımıza qarşı törətdiyi Xocalı soyqırımı haqqında əsl həqiqətlər dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırıldı.

Ulu öndər Heydər Əliyev Xocalı soyqırımı ilə əlaqədar xüsusi fərman imzalamışdır və Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 26 Fevral - Xocalı Soyqırımı Günü elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Ulu öndər hər il faciənin ildönümündə keçirilən matəm tədbirlərində iştirak etmiş, Xocalı soyqırımını kədər hissi ilə xatırlamışdır. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan edən ulu öndərimiz hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymətin verilməsinin zəruriliyini vurğulamış, bu faciənin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir. Faciəni xalqımızın böyük dərdi adlandıran Heydər Əliyev, eyni zamanda Azərbaycanımızın əsrlər boyu keçdiyi mübarizə, milli-azadlıq yolunu şanlı, uğurlu yol kimi dəyərləndirmişdir.

Soyqırımının tarixi ermənilərin Azərbaycan ərazilərinə köçürüldükləri dövrdən başlanır. 1813-cü ildə "Gülüstan" və 1828-ci ildə "Türkmənçay" müqavilələrinin, həmçinin 1828-1829-cu illərdə baş vermiş Türkiyə-Rusiya müharibəsindən sonra Ədirnə sülh müqaviləsinin bağlanılması ilə Azərbaycanın tarixi torpaqları bölündü. Araz çayı sərhəd olmaqla sahəsi 280 min kvadratkilometrdən çox olan Cənubi Azərbaycan İran imperiyası, sahəsi 130 min kvadratkilometrə qədər olan Şimali Azərbaycan isə Rusiya imperiyası tərəfindən işğal edildi. Çar Rusiyasının köməyi ilə Şimali Azərbaycanda yerləşdirilən ermənilər yerli sakinlərə qarşı ərazi iddialarına başladılar. Nəticədə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində və başqa Azərbaycan torpaqlarında gəlmə ermənilər yerləşdirildilər. Beləliklə, erməni millətçiləri azərbaycanlılara qarşı dəfələrlə - 1905-1906-cı illərdə, 1918-1920-ci illərdə, 1948-1953-cü illərdə və 1988-1993-cü illərdə kütləvi soyqırımı həyata keçirdilər. Təkcə 1904-1905-ci illərdə ermənilər Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda yüz minlərlə dinc azərbaycanlı sakini amansızcasına qırdılar, dəhşətli cinayətlər törətdilər. Həmin hadisələr zamanı Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl ərazilərində yüzlərlə Azərbaycan kəndi tamamilə dağıdıldı. İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi məhv edildi.

Tarix boyu erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı qanlı cinayətlər, terror aktları, soyqırımı törədilib. Xocalı faciəsi bunlardan yalnız biridir. 26 fevral 1992-ci ildə Xocalı şəhərində dünyada misli görünməyən dəhşətli vəhşilik törədildi.

Bu gün isə Azərbaycan diplomatiyası soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində intensiv iş aparır. Prezident cənab İlham Əliyev Xocalıda baş verənləri erməni millətçilərinin iki yüz ildən çox müddətdə xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin ən qanlı səhifələrindən biri kimi səciyyələndirib. Dövlət başçısı demişdir: "Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi. Bu siyasət erməni diasporunun və lobbisinin imkanlarından istifadə edilməklə, bütün dövrlərdə hərbi, iqtisadi, ideoloji və mədəni vasitələrlə aparılmışdır. Keçən əsrin 80-ci illərinin sonlarında isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tammiqyaslı hərbi münaqişəyə gətirib çıxardı. Zaman-zaman davam etdirilən bu məkrli siyasət nəticəsində azərbaycanlılar əzəli torpaqlarından qovuldular, didərgin salındılar, yüz minlərlə insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü".

Bu faciənin bütün dünya ölkələri tərəfindən soyqırımı aktı kimi qəbul edilməsi üçün uzun illərdir Heydər Əliyev Fondunun Moskva nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası həyata keçirilir. Azərbaycan gənclərinin xüsusi fəallığı ilə müşayiət olunan kampaniyalar dünyanın müxtəlif guşələrində Xocalı soyqırımı barədə həqiqətlərin yayılmasında, beynəlxalq ictimaiyyətin diqqətinin erməni təcavüzkarlığının ağır nəticələrinə cəlb edilməsində mühüm rol oynayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı ölkəmizin ərazisinin 20 faizi işğal edilmişdi. Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır.

Xocalı soyqırımı bəşər tarixinin ən dəhşətli faciəsi kimi heç vaxt yaddaşlardan silinməyəcəkdir. Xocalıda tökülən qanlar bu torpağın üstündə açılan çiçəklərin rəngidir. Vaxt gələcək, ermənilər axıtdıqları qana görə tarixin ədalət məhkəməsi qarşısında dayanacaqdır. Çünki tarix heç nəyi unutmur.

30 ilə yaxın bir müddət keçməsinə baxmayaraq, Azərbaycan xalqı o qanlı faciəni heç vaxt unutmamış və unutmayacaqdır. Xalqımız ötən illər ərzində ermənilər tərəfindən işğal olunmuş doğma torpaqlarımızın azad olunması və işğal zamanı şəhid olmuş soydaşlarımızın qisasını almaq, intiqam hissi ilə yaşamışdır. Müzəffər Ali Baş Komandan və Şanlı Ordumuz erməni tapdağında olan torpaqlarımızı cəmi 44 gün ərzində işğaldan azad etdi, Xocalıda və digər yerlərdə həlak olmuş qəhrəman övladlarımızın qisasını aldı.

**Əli SADIQOV,**
**"Respublika".**

Respublika .- 2022.- 23 fevral.- S.9.